ƏSRİN İMAMI,

YAXUD AY İŞIĞINDA MƏKTUB

(dini-tarixi araşdırma)

Rövşən NOVRUZOĞLU

(Əvvəli ötən saylarımızda)

- Yadında saxla ki, hər kəndin, hər şəhərin, hər ailənin və nəhayət, hər kəsin şeytandan qorunması üçün bir işarəsi var. Bu işarələr ana bətnində verilir. Bu, xüsusi işarələri mən İmam Həsən Əsgəriyə aparıram. O da övladı On ikinci imama - Mehdi (ə.s.) hədiyyə edəcək. Gələcəkdə dünya bu xüsusi işarələrlə idarə olunacaq, ya Şeyx... - Adrian dedi.

- Bu tarixi biz yaxşı bilmirik - Şeyx dedi. - Bax, mən onların nəslindənəm, ya Şeyx-Adrian gözlənilmədən əlavə elədi.

Şeyx həzrətləri istədi əyilib onun ələrindən öpsün, Adrian qoymadı. Biz qardaşıq, ya Şeyx - dedi və sonra pıçıldadı: - Onların hər ikisinin başını kəsiblər. Gəncə əvvəllər dinsiz, imansız məkan olub. Şahzadə İbrahimlə, bacısı xanım Xədicə banunun başları kəsildikdən sonra, Allah bu yerlərə cəza verib, bu yerləri viran qoyub. İbn Yəzidin nəslini kəsib. Biri-birinin ardınca baş verən zəlzələlər Gəncənin altını üstünə çevirib. Hələ belə zəlzələlər çox olacaq. O vaxtadək ki, bu yerlərə bir din xadimi, imanı olan birisi burda taxta çıxsın.

- Bəs Şahzadənin anası, bacısı harda dəfn olunub, Adrian həzrətləri? - Şeyx soruşdu.

- Bacı qardaşın ayağı altında dəfn olunub - Adrian dedi. Vatikan xəritələrində belə göstərilib anası da başı üstündə - əlavə elədi. Sən - dedi, həmin məzarın üstündə dayanmısan, ya Şeyx...

Şeyx həzrətləri diksindi. Elə bil yer ayağının altından qaçdı. O, büdrədi. Yerində lənqər vurdu. Dizləri büküldü.

- Allahım, mən nə günah etdim? Vay olsun mənə - Şeyx haray saldı.

- Sən darıxma, ya Şeyx. Adrian həzrətləri dedi. Sənlik burda elə bir iş yoxdur. İmkan olsa, hər iki məzarı yenidən qur, ya Şeyx. Bu missiyanı Allah sənə göndərdi - əlavə elədi.

- Mən Allah qarşısında söz verirəm - Şeyx dedi və bu zaman elə zənn etdi ki, içində yeni bir abi-hava gəzib, dolanır. Hər iki məzarı mən yenidən quracam - dedi.

II Adrian gördü ki, hava bir az da tutuldu. İmamzadənin başı üstündə göy guruldadı. Şimşək çaxdı... Yağan yağışın altında dayanan Adrian tərpənmədi. Əllərini göyə açıb, dayandı. İstədi armud ağacının altına keçsin... mümkün olmadı. İldırımın bir parçası armud ağacının üstünə düşdü, ağac ikiyə bölünüb, yanmağa başladı. Şeyx həzrətləri bir iki addım irəli yeridi, Adrianın lap yanında dayandı. O, qorxurdu ki, onun da üstünə ildırım düşə. II Adrian onda gördü ki, Şahzadə İbrahimin torpağı ovulub, tökülmüşdü. Ətrafa səpələnmiş balaca qəbrin dörd bir yanı qupquru idi, ora yağış düşməyib. Qəbrin üstünə bir damcı belə, yağış yağmayıb. Hamı qorxudan, yağan güclü yağışdan danışmışdı.

II Adrian gördü ki, Şeyx Həzrətləri dizlərini məzarın yanında yerə qoydu. Əllərini göyə açıb, çağırdı:

- Yeri-göyü yaradan, bizləri xəlq edən Allahım, möcüzənə şükürlər olsun... Bizi bağışla İlahi, keç günahımızdan... Qarğışlardan, ah-nalələrdən göy üzü tutulub, səni görə bilmirəm, Allahım... Sən rəhm edənsən, bizə rəhm et. - Adrian gördü ki, Şeyx Həzrətləri ağlayır... dinmədi. Bir addım da qəbrə yaxın durdu. Dörd bir yanda külək qopmuşdu, yağış yağır, şimşək çaxırdı. İldırıma düşən armud ağacı ikiyə bölünüb, qovrulurdu...

Sonra heç kəsin gözləmədiyi bir anda imam övladının qəbrindən səs gəldi, insanı təpədən-dıqnağadək silkələyən, titrədən qüdrətli bir səs gəldi. Bu səs sanki göyün yeddinci qatından gəlirdi.

- Adrian - məzardan səs qopdu... Neçə əsrdi mən tənha qalmışam. Məni yoluxan, axtaran olmayıb. Sən xoş gəldin Adrian, xoş gəldin... Mənim İsa babamın nəvəsi, xoş gəldin. Səni babam İmam Əliyyən-Nəqi gözləyir. O sənin pişvazına çıxacaq. Allah mənimlə bağlı sənə bir sirr verib... Sən onu heç kəsə, heç yerdə Allahın rizası olmadan danışma, Adrian...

Qeybdən gələn bu səs Şeyx də eşidirdi. Və hər eşitdiyi səsə "Allahu Əkbər" deyə çağırırdı.

Qeybdən gələn səs Şeyx həzrətlərinə elə gəlirdi ki, bu səs məzarın lap dərinliyindən gəlir.

- Adrian... sən mənim ruhumu, qəbrimi isitdin, nura boyadın. Allah səni sevindirsin, Adrian. Sənin Gəncəyə, mənimlə görüşə gəlməyin... Allahdandı, bütün bunlar Allahın hökmü olaraq qalır.

Şeyx Həzrətləri onda gördü ki, Vatikan başçısı II Adrian ağlayır... Nəzərlərini qəbirdən yığışdırıb, başını yuxarı qaldırdı. Göy yenidən guruldadı. Şimşək ara vermədi. II Adrian bu ara ixtiyarsız olaraq qışqırdı:

- Eşq olsun Sizə... Sizlərə eşq olsun, Allahım, - dedi.

Şeyx həzrətləri gördüyü hər nə vardısa qəribə gəlirdi. O, baş verənləri Allahın möcüzəsi kimi qəbul edirdi.

II Adrianın sifəti elə bil ay parçası idi, işıq saçırdı. Dikəlib, ətrafa nəzər saldı. Şeyx Həzrətlərini başının üstündə görcək, toxtadı.

- Həzrəti Adrian, - dedi, bizi evdə gözləyirlər, - Şeyx pıçıldadı.

- Mənə Həzrət demə, ya Şeyx... - Adrian dedi. Bu sözün sahibi sizsiz. Sizin xidmətləriniz böyük oldu. Halal edin. Allah mənim iki süvarimi Sizə əmanət qoydu. İmam övladının yanında dəfn etdim. Bu da onların qisməti idi. Ruhları şad olsun.

Şeyx qəbristanlıq duası oxudu. İldırıma düşmüş, tüstüsü hələ kəsilməyən armud ağacının yanında ayaq saxladı. Və yanan armud ağacının önündə baş əyib, duasını oxudu.

Atlar yəhərləndi. Amma Adrian dəfn etdiyi süvarilərini unuda bilmədi. Gözlərini onların məzarından çəkə bilmədi. Sonra görəndə ki, süvari məzarları Şahzadə İbrahimin çiyinləri üstündə qurulub, toxtadı. "Allah rəhmət eləsin" - pıçıladadı, üzünü yenidən Şeyxə tutdu: - Mən - dedi, müzəlmançılığı qəbul etdim, ya Şeyx... Mən müsəlmanam əlavə elədi...

- Allah səni sevindirsin, Adrian... - Şeyx həzrətləri onun qarşısında baş əyib, iki büküldü.

- Bu da bir möcüzə - Şeyx pıçıldadı.

Səyyah Əssat "Yol qeydlərində" yazır: "...Allahın adı ilə. Biz Şahzadə İbrahimdən ayrılıb, torpaq yola çıxdır. Mən yol boyu Şahzadə İbrahimin haylı-haraylı səsini eşidirdim. O, Adriani səsləyirdi: - Adrian, İsa Əleyhissəlam babamın nəvəsi - deyirdi. Mənə həmişə yasin oxu... Qurandan Yasin surəsini mənimçün oxu Adrian. Sən ki, bunu oxuya bilirsən. Yasin oxunanda mən həmişə dirilirəm. Yasin oxuyun mənə... Ayaqlarımın altında yatan bacım gecə-gündüz mənim üçün ağlayır. Bu Gəncə camaatı mənə Yasin oxumur. Adrian... Babam İmam Əliyyən-Nəqi Əleyhissəlama xəbər ver ki, mən burda tənha qalmışam...

Mən bütün bunları özüm eşitdim. Deyilənləri Gəncə Şeyxi də eşidirdi. Onu da gördüm ki, Şeyx həzrətləri bundan sonra, özünü lənətlədi. "Səni lənətə gələsən Şeyx..." - qışqırdı. Bir Yasin nədir ki, onu Şahzadədən, İmam övladından gizlədirsən... - əlavə elədi və yenə qışqırdı: "...Səni lənətə gələsən, Vay olsun, sənə..." - ağladı. Uşaq kimi ağladı və özünə söz verdi ki, həmişə, hər gün İmamzadədə Yasin oxuyacaq...

Gəncə Şeyxi Vatikan başçısı II Adriani Kür çayının qırağından saldıqları torpaq yolla Səltənət bəyin ərazisinədək (indiki Yevlax rayonunun ərazisi) ötürdü. II Adrian Su qovuşan deyilən yaşayış məntəqəsinədək getməli, oradan Muğana qədəm qoymalı idi. Sonra Urmiyə bələdçiləri onu İraq sərhədlərinədək aparmalı idilər. II Adrian yol boyu düşünür, götür-qoy edirdi. Şahzadə İbrahimin qeybdən gələn səsi, çağırışı hələ də qulaqlarından getmirdi. O, Quranı əzbərdən bilirdi. Yol boyu oxuduğu dualar, Allahla qurduğu təmaslar onun yolundakı bənd-bərəni götürmüşdü. Gəncə Şeyxi isə Şahzadə İbrahimin - İmam oğlunun batmış, üstü dağılmış, üstündə qan ləkələri qalan məzarı ilə, ildırım vurmuş və yanıb qaralmış, narın tüstülərə bələnmiş armud ağacı arasında qalmışdı. Onun Gəncə camaatından qəlbi qırılmışdı. II Adrianın Şahzadə İbrahimlə bağlı sirləri açılmadı... Şeyx çox istərdi ki, o sirləri bilsin... amma Allahın elçisi yol-yolağı bağladı. Gəncə Şeyxin bir müddət məzardan nəzərlərini yığışdıra bilmədi.

Məzarın dibində dizlərini yerə qoydu. Alnını məzarın qırılmış, neçə yerdən çat vermiş və ovulub, tökülmüş baş daşına söykədi. Duasını oxuyub, dikləndi. Və birdən arxaya qanrıldı. Ona elə gəldi ki, arxasında xeyli sayda Gəncə camaatı dayanıb. Qışqırdı: - Ey Gəncə camaatı...

Amma camaat üçün bu qışqırıq fərq etmədi. Əllərində daş və ağac, dəmir parçası tutan adamlar Şeyxin qəsdinə dayanmışdılar. Şeyx məsələnin nə yerdə olduğunu bildi. Bir az öncə burda mərəkə çıxaran Ağa Nemət adamların önündə idi. O, qışqırırdı və sonra neçə yerdən baltalanmış qədim bir kötüyün üstünə çıxdı. Bu kötüyün üstündə qurbanlıq üçün kəsilən qoyunlar doğranılırdı.

- Baxın bizim Şeyximizə - onu nişan verdi - İmamzadə kimi ziyarətgaha üstündə min cür şeytan işarəli paltar-palazı olan xaçpərəsti dartıb, gətirib. Sonradan öyrəndim ki, bu adam xaçlar padşahıdır... Ziyarətgahı murdarlamaq üçün Şeyxə pul da verib... Lənətə gələsən səni Gəncəyə gələn yedə - irəli şığıdı. Camaat nə durmusuz... bu vələdüznanı döyün... qovun çıxsın getsin...

Ağa Nemət hərəkətsiz dayanmış adamlara tərəf qanrılıb, bağırdı: - Siz nə üçün dayanmısız? Verdiyimi alaram a!.. İrəli... - onları itələyib, daş atanların cərgəsinə saldı. Uzaqdan atlılar görünəndə adamlar Ağa Nemətin ətrafına yığıldılar. Onda Şeyxin sir-sifəti qan içərisində idi. Atlılar tüstülənən armud ağacının yanında toxtadılar.

- Nə baş verib? - atdan düşən yaraşıqlı birisi əlini qılıncın tiyəsində saxlayıb soruşdu: - Daha nə olacaq, Ağa Mirzə - Ağa Nemət irəli çıxdı. Şeyx - dedi, xaçpərəstləri İmamzadəyə yığıb, məşvərət keçirir. Soruşun camaatdan, desinlər - ətrafıdakı adamları nişan verdi. Amma heç kəs irəli çıxmadı. Hamı Ağa Mirzədən qorxub, çəkinirdi. Onu bu qarmaqarışıq yerə Allah göndərmişdi.

- Çəkilin - Ağa Mirzə qışqırdı. Çəkilin gedin burdan - dedi. Sonra üzünü Ağa Nemətə tutdu: - bu adamlardan almadığın daha nə qalıb?.. vicdanı aldın, əxlaqı, namusu bazara çıxartdın. Qızlarımızı gəlib-gedənlərə satdın... müriflərə, abırsızlara meydan verdin. Bizilüt edib abrımızı yollara saldın. İndi nə istəyirsiz? - qışqırdı.

Ağa Nemət bu ara Ağa Mirzənin gözlərində bir üsyan gördü. Bundan sonra Ağa Nemət sərt bir görkəm alıb, tələm-tələsik gözdən itdi.

Şeyx həsrətləri qırmızı kərpicli divarın dibindən keçən arxa tərəfə yeridi. Əl-üzünə sərin bir su vurdu. Əl-üzünün və üstünün qanını təmizlədi. Üzünü Ağa Mirzəyə tutdu: - Sağ ol - dedi. Allah səni vaxtında göndərdi. Yoxsa bu əbləh uşağı məni öldürmüşdü.

- Bəs bu xaçpərəst kim idi... - Ağa Mirzə soruşdu və atdan endi.

- O, xaçpərəst deyildi, Ağa Mirzə. O, müsəlman idi - Şeyx dedi. Gəlmişdi ki, İmam övladına itaət eləsin... Müsəlmanlığını təzələsin.

Şeyx həzrətləri II Adrianın haradan gəldiyini, hara getdiyini və kiminlə görüşəcəyini gizlətdi. Ağa Mirzə sakitlikdən sonra, gördü ki, külək qalxır, atına mindi. Sən də - dedi, dayanma Şeyx. Burda səndən başqa bir adam yoxdur. Get evinə, dincəl. Bu kəfənsizlər yoxsa səni didərlər. Rahlan, get...

Ağa Mirzə, atının başını döndərib, gözdən itdi. O, yağan yağışdan qorxurdu ki, islana. Amma yağış yağmadı. Bir ovuc yağdı, sonra dayandı. Şeyx Həzrətləri məzarın yanından qalxmadı. Ona elə gəldi ki, kimsə başının üstündə dayanıb, "Ya Allah" - deyib, dikəldi. Gözlərinin qabağına duman gəldi. Sonra bu dumanda II Adrianın işıqlı, nurlu sifətini, aydın gözlərini gördü. Onu da gördü ki, II Adrian əynindən üstündə xaç nişanları olan libasını çıxarıb, ağappaq bir paltar geyib. Onun başında üstündə xaç nişanı olan əzəmətli bir tac vardı. II Adrian əlində tutduğu qızılı Qurani-Kərimi başının üstünə qaldırdı. Şeyx Həzrətləri - o Quran səndə hardandı Adrian? - soruşdu. O, cavab vermədi.

Araya düşən ani sakitlikdən sonra dedi: - Ya Şeyx, sən bu gündən libasını dəyiş. Şeyxliyi ver başqasına... Ağamız buyurdu ki, sən məhz bundan sonra müsəlman aləminin dördüncü İmamı Məhəmməd Bağır Əleyhissəlamın övladı Şahzadə İbrahimin məzarını qoruyacaqsan. Ona göz-qulaq olacaqsan. Yanında Allahın hökmü olacaq. Gəncəyə hələlik Şeyx gərək deyil.

Heç vaxt nigarançlıq eləmə, qorxma. Allahın izni olmadan heç kəs sənə və məzara hücum edə bilməz. İmam övladına bilət et, ya Şeyx...

Şeyx bir də onda gördü ki, başının üstündəki yağış dolu buludlar çəkilib, getdi. Gün üzü yenidən açıldı. Duman da əriyib, torpağa, daşa-divara çökmüşdü. II Adriana gəlincə o da göylərə çəkilmişdi elə bil...

Şeyx bir daha kəndə qayıtmadı. Ağa Nemət tərəfindən döyülməsi onun belini sındırmışdı.

Şeyx Həzrətləri bir daha Gəncəyə də qayıtmadı. Gününü Şahzadə İbrahimin məzarına xidmətdə başa vururdu... Şeyxi gənclilər unutmaqda davam edirdi.

Övladları ona yemək daşıyırdılar. Günün birində Şeyx ondan da imtina etdi. Çünki ömür-gün yoldaşı Umgülsün də yırıyığış edib, onun yanına köçdü... və köçən gecədə arvad xəstələndi, yatağa düşdü. Şeyx olan-qalan gücünü toplayıb, ziyarətgahın ayağından azca aralı özünə balaca bir daxma düzəltdi. Arvadına taxtadan bir çarpayı qurdu.

- Nə üçün gəldin, başımın tacı - soruşdu, xəstə arvadına ürək-dirək verdi.

- Mən sənsiz ölərdim, ya Şeyx - arvadı dedi. Amma sənin sifətini, qollarını, əllərinin üstünü alnımı kim çapıb? Nə istədilər səndən... nə vermişdilər? - ağladı, gözünün yaşını sıxıb, dayandı. Şeyx bilirdi ki, arvadını yatağa salan onun döyülməsi, əzilməsi olub. O, əzilmiş, qaraqanqul sifətini, üstündə qanı laxtalanmış dodaqlarını gizlətməyə çalışırdı. Gərək gəlməzdin-pıçıldadı.

Yenə qeydən səs gəldi. Çox ani olaraq, balaca taxta daxma işıqlandı.

- Ya Şeyx - II Adrianın səsi idi.

Şeyx dinmədi. Onda neçə gün yata bilməyən arvadı Um Gülsüm yatırdı.

- Ya Şeyx - Adrian yenə çağırdı.

- Xoş gördük. Həzrət Adrian, xoş gördük. Haradasan?..

(Davamı 14-cü səhifədə)

ƏSRİN İMAMI,

YAXUD AY İŞIĞINDA MƏKTUB

(dini-tarixi araşdırma)

(Əvvəli 12-ci səhifədə)

- Xoş gördük, ya Şeyx... Bu axşam Həzrəti Şahzadə İmam İbrahimin atası yuxusuna gələcək... O biri tərəfdən də sənə verdiyim pulların bir qismini xərclə... halalın olsun, xərclə. Evinə-eşiyinə əl gəzdir. Um Gülsümdən də arxayın ol... sağalacaq. Baş verən çətinliklərə gücünü topla və dayan. Xudahafiz...

Daxmaya dolan işıq və səs əriyib, çəkilib, getdi. Əlini cibinə apardı. Adrianın verdiyi qızıl sikkələr yerində idi. Amma əl vurmadı. "Yox" - dedi, ölərəm, amma əl vurmaram - pıçıldadı. Bu, Beytül-maldı, əl vurmaram. Arvadı yataqda ikən əyin-başına əl gəzdirdi... Günorta namazından sonra, qonşu kəndə uzanan, ot basmış çığırla yola düşdü. O, üröyi qızdığı, xətir-hörmətini hələ də saxlayan Seyid Qara kəndinə çimmək üçün hamama gedirdi... Usta Əliş kişilə danışmağa gedirdi və üröyindən keçirdi ki, qayıdandan bazardan gəlsin.

...Bədəninin göynərtisinə, ağrılarına baxmayaraq işlərini görüb, səhmana saldı. Kənddə böyük hörmət və izzət sahibi olduğundan hamı onun qabağına çıxır, baş əyib, görüşürdü. Bütün bunlar onu kövrəltdi. Başını hündür, qocaman çınar ağaclarından birinə qoyub, sifətini və göz yaşlarını gizlətməyə çalışdı.

- Ya Şeyx, biz olanları bilirik - kimsə dedi. Sən heç də tək deyilsən, ya Şeyx... Divan onlarda, qanun onlarda... var-dövlət onlarda, hökm, hökmdarlıq onlarda. Səndə isə Quran var. Allah var başının üstündə. Sahibəzzaman var. O, gücdür, qüdrətdir, Şeyx... var Şeyx başını çınar ağacından çəkdi. Onda gördü ki, kənd adamları onun üçün ayın-oyun bağlaması, zənbili düzəldir...

- Mən bunun üçün gəlmədim - Şeyx dedi. Mən gəldim Sizin hamamda üzümə su vurum. Usta Əlişi də özümlə aparım. İmam övladının məzarı oldən gedir, onun yan-yörəsini düzəltsin.

- Ya Şeyx, sən hamama gir... yuyunub, təmizlənənə, ustanı da taparıq, hələ iki-üç cavanı da ona qoşarıq ki, işlər rahat getsin. Keç, keç hamama... Şamları təzə yandırmışıq.

Şeyx həzrətləri hamama keçdi... Yuyunub, təmizləndi. Həmişə təmizlənmək üçün bu qədim hamama gələrdi. Bu hamamın ocağı, ocaqxanası olmazdı. O, on iki şamla qızırdı. Su hardan gəlirdi, hara gedirdi, hara töklürdü, sirr olaraq qalırdı. Camaat onun daşını-divarını göz bəbəyi kimi qoruyurdu.

Gün əyiləndə Şeyx Həzrətləri Şam hamamından çıxdı. Onun üçün samovara od salınmışdı, çay dəmlənmişdi. Amma içmədi. Um Gülsüm xəstədir - dedi. İçə bilmərəm. Boğazımdan keçməz - əlavə elədi. Kövrəldi. Yola çıxanda, usta Əlişi soruşdu. Dedilər ki, Usta Əliş çoxdan gedib. Kədin cavanlarını da özü ilə yığıb aparıb. Elə bir nigarançılıq yoxdu, Şeyx. Sən bizim əzizimiz, vuran üröyimizsən.

- Sən elə bilmə ki, biz Ağa Nəmətin abırsız iş tutmasına haqq qazandırdıq - dəmirçi Rüstəm kişi pıçıldadı. Kənd ayağa qalxmışdı... əlavə elədi.

Şeyx həzrətləri hamamçı Gövhərin həyətindən çıxanda, dəmirçinin səsini yenidən eşitdi: - Ay uşaq, Şeyxin bağçasına əl yetir-uşaqlardan birini səslədi.

Həyətdən çıxanda Şeyx geri qanrıldı. Həyətdə xeyli adam vardı. Onu görməyə gəlmişdilər.

Şeyx köksünü ötürüb, dedi:

- "...Hər insanın üç dostu var; onlardan biri deyir ki, mən sənin ölənə qədər varam; bu onun malıdır. O biri deyir ki, mən sənlə qəbrə qədər varam; bu onun övladı və əhl-əyalıdır; Üçüncü deyir ki, mən həmişə sənin olacağam, səndən ayrılmaram; Bu onun əməlləridir... Allah Siz Seyid Qara camaatını həmişə yaxşı əməllərilə tanıtsın, hörmət və izzət sahibi etsin... Sağ olun.

Şeyx gəldiyi yola çıxdı. Bu yol onu bir başa Şahzadə İbrahimin məzarına qədər aparırdı. Bir az aralıda isə onun daxması idi. Ona elə gəlirdi ki, II Adrian onunla yanaşı addımlayır.

Gəncəyə gələn Vatikan başçısı II Adrianda Azərbaycan ən güclü inanc yerlərindən biri, lakin gözdən və könüldən uzaq düşən və getdikcə əriyib, adi qəbirlərdən birinə çevrilən IV İmam Məhəmməd Bağır Əleyhissəlamın oğlu Şahzadə İbrahimlə bağlı çox ciddi və maraqlı bir sirr qaldı. O sirr nə idi, bilən olmadı. Bu sirr Şeyx Həzrətləri üçün də açılmadı, qaranlıq qaldı. Amma Şeyx yəqin etmişdi ki, bu məzar Gəncə torpağının üröyi idi... Gəncədə baş verən zəlzələdə İmam övladının ətrafındakı məzarların hamısı dağılıb, yerin təkinə çəkilmişdi, onun məzarı isə salamat qalmışdı. Həmin vaxt baş verən zəlzələni gözlərilə görən tarixçi İbrahim Gəncəvi adlı bir mədrəsə müəllimi "Əmanət" kitabında yazır: "...Gəncədə yerin dərinliyindən və göyün neçənci qatındansa qopan nərilti Gəncəni tamam tanınmaz hala saldı. Qədim, çox qədim Şahmalı qəbristanlığı dağılıb, viran qaldı. Ən məşhur adamların; filosofların, alim və yazıçıların, böyük din xadimlərinin... cəddi ağır olan seyidlərin məzarları yerləyeksan oldu. Amma təkcə kimsəsiz və qərib bir məzar qaldı. Bu sirri heç kəs anlamadı. Həmçinin zəlzələdən sonra mən gördüm ki, həmin tək qalan məzarın üstündə günəş kimi yanan bir sandıq var. Allahın ən böyük möcüzələrindən birini onda gördüm. Və onu da gördüm ki, zəlzələdən sonra... Bir xaçpərəst Gəncə kəşişi Sarı Sarak həmin sandıqmçaya əl yetirib, aradan çıxdı... Mən bunu gördüm. Amma ona çata bilmədim. Çünki baş verən dağıntılar... məni çaşdırmışdı. Belə də deyirdilər ki, həmin qızıl sandıqçada dünyanın qıyamət günü haqqında və doğulacaq on ikinci imamın haqqında ilk məlumat və yaxud məktub vardı..."

Gəncə camaatı kəşişlərini "Sarı Sarak" deyə çağırırdı... Zəlzələdən sonra Şahzadə İbrahimin qəbri üstündəki qızıl sandıq yoxa çıxdı. Zəlzələdən bir həftə ötmüş Kəşiş Sarak da gözdən bir dəfəlik itdi... daha "gördüm" - deyən olmadı. Şeyx Həzrətlərinin bütün bunlar haqqında geniş məlumat vardı. O vaxtdan neçə illər ötüb keçmişdi.

Amma zəlzələ ağrısı hələ də qalırdı...

Bi gecədə onun üçün yaraşıqlı, balaca bir daxma quruldu. Və o vaxtdan da Şeyx daha şəhərə qayıtmadı. Özünü Şahzadə İbrahimin nökəri elan etdi... On gün keçməmiş Şeyxin ömür-gün yoldaşı Um Gülsüm dünyadan köçdü. Hamı baş götürüb, qaçırdı. Yenə zəlzələ olacaqdı. "Gedən zəlzələ qayıdacaqdı" deyirdilər.

Şeyx arvadına ipək bir yorğana bükdü. Var gücü ilə içini çəkib, hönkürdü. Um Gülsüm - pıçıldadı, sənə qurban olum... başına dönüm. Mən sənə belə ölüm arzulamırdım... Mən heç nə edə bilmirəm. Əlim kəsilə qaldı... Ağ, yanlarına neçə yerdən tikiş vurulmuş dəsmalını gözünə tutdu: Ay Allah - qışqırdı. Məni bağışla...

Əlim heç nəyə çatmır. Tənha qalmışam... Sonra necə oldusa yenə qışqırdı. İpək yorğana bükülü arvadı Um Gülsümü qucaqladı, bağrına basdı... Adrian - qışqırdı... Uzünü başının üstünü almış qara bulud tutdu... Adrian... mən tənha qalmışam. Mən gücümü dəfn edirəm. Adrianı nə üçün qaçırdı, bilmədi. Qulağına səs gəldi. Sanki Adrian beş addımlığında idi.

- Adrian... - Şeyx dedi, Um Gülsüm mənim üröyim idi. Həmişə döyünən üröyim idi. Mən ölmüşəm Adrian. Ölüm qabağında ölmüşəm. Şeyx sonra var gücünü toplayıb, ipək yorğanın bir qırağından yapışıb, qaldırdı. Zəlzələdən çat vermiş, çevrilmiş qədim qəbrlərdən birinə tərəf yeridi. Um Gülsümün ruhu inciməsin - deyə, onu ehmalca baş qəbrlərdən birinə qoydu... Camaat Um Gülsümü Gəncə çayının kənarındakı Arılar kəndində dəfn etdi. Şeyx arvadı, dünyadan vaxtsızvədosiz köçən Um Gülsümlə tənha qalmışdı.

Axşama yaxın bunu da eşitdi ki, Zəlzələ Seyid Qara kəndinə də girib, altı-üstünə çevirib... Şam hamamını da batırıb, darmadağın edib... Um Gülsümün atası və anası da bu kənddə basdırılmışdı.

Vuranə qalmış, bir tərəfi tamam batmış Arılar kəndinin qəbristanlığı da dağılmışdı. Dəfndən sonra hamı dağıldı... Şeyx tənha qaldı. O, hiss etdi ki, nəfəsi təntiyir, gözləri qaralır, başı dumanlanır. İstər-istəməz yenə çağırdı:

- Adrian... Mən tənha qalmışam - yenə qışqırdı.

Şahzadə İbrahimin məzarı önündə yorğun, heydən düşən dizlərini yerə qoydu. Əllərimə, qollarıma, ayaqlarıma zəncir vurulub, Adrian-ağladı.

Yenə qulağına səs gəldi:

- Biətini tərələ Şeyx. Gücünü topla. Baş verənlər səni çaşdırmasın. Çətinliklər səni Şeytana tərəf aparmasın...

Adrianın səsi haradansa uzaqlardan gəlirdi.

Şeyx Həzrətləri qamətini düzəltdi.

- La İlahə İllallah... - əllərini Şahzadə İbrahimin məzarının üstünə qoydu... Mən - dedi, Şeyx Mir Möhsün Seyid Allahyar oğlu, biət eliyirəm... Peyğəmbər (s.ə.) qanından, canından olan İmam Əliyyən Nəğinin adına... Onun övladı İmam Həsən Əsgərinin adına... Və Gəncə Şeyxi kimi dördüncü imamımız Məhəmməd Bağır Əleyhissəlamın övladı Şahzadə İbrahimin adına, şərəfinə... Və onun yanında yatan anası Seyid Zəkiyyə xanıma... bacısı Xədicəyə - Şeyx bu ara dayandı. Rəngi dəmirçi kürəsi kimi qızardı.

- Nə baş verdi, ya Şeyx? - səs- yenə gəldi.

- Mən səhv etdim, Adrian - dedi... Dedim ki, Şahzadə İbrahimə və onun yanında yatan Seyid Zəkiyyə xanımın adına... Səhv etdim... Mən tanımadığım bir adı çəkdim.

- Səhv etmədin ya Şeyx. - Adrianın səsi gəldi. O sözü sənə Allahın hökmü ilə mən dedizdirdim. Seyid Zəkiyyə İsa Əleyhissəlamın nəslindəndi... Sən səhv etmədin. Sən bunu deməklə, biətini tərələməklə Gəncəyə qayıdacaq zəlzələnin qabağını aldım. Övladına görə Seyid Zəkiyyə Allahın hökmü ilə o zəlzələnin qabağında dayandı. Ya Şeyx... Gəncə camaatı bu sirri bilməz. Sən dua et... Ölməyə tələsmə, Sən öldün, bil ki, Gəncə öldü. Qalx. İçini, ruhunu, fikrini, nəfəsini tərələ.

Şeyx məzarın önündə bükülmüş dizlərinə güc verdi, dikəldi. Əllərini açıb, başını göylərə qaldırdı. Sonra zəlzələdən batıb, yerlə-yeksan olan Seyid, Qaralılar kəndinin həlak olan camaatına rəhmət dilədi. Uzaqdan qaralan kənd batmış, yerlə-yeksan olmuşdu. Amma Şam hamamı və ondan beş-on addım aralı qurulmuş balaca, güllü-sarmaşıqlı olan məscid yerində dayanmışdı. Yeri-yurdu oynadan zəlzələ ondan yan keçmişdi. Şeyx Um Gülsümün də qəbrinə əl gəzdirdi, torpaqlayıb, böyürbaşında səliqə-səhman yaratdı. Bir neçə gündən sonra on addımlıqdan keçən quru-muş, suyu çəkilib getmiş Gəncə çayına su gəldi. Baş verənlər... hər şey ona yuxu kimi görünürdü.

Bütün bunlara Şeyx "Allahın möcüzəsi" - deyib, dayandı. Uçulub, dağılmış, tufana düşən qəbirlərin arasında dayanıb, "Yasin" surəsini ucadan oxudu. O, Yasini oxuduqca tez-tez gözlərini İmam övladının məzarına tuşlayırdı. Bu zaman o, gözləri önündə yeni bir möcüzənin baş verdiyini görürdü. Şahzadə İbrahimin və onun yanındakı qəbirin - üstüdə zərif otlar, kiçik rəngli güllər yarpaq tuturdu. Um Gülsümün məzarının baş tərəfində isə hansısa bir ağacın pöhrəsini gördü. Onu da gördü ki, sübh namazınadək qəbirlərin dörd bir yanı yamyaşıl və zərif bir otla dövrələnib.

...Vatikan baçısı II Adrianla gələn səyyah Əs Səat qələmə aldığı yol qeydlərində yazır: ...Gəncədən ayrılandan sonra Adrian həm qəmgin görünürdü, həm də fikirli. Alnındakı biri-birinə dolaşan qırışlar açılmırdı... On səkkiz gün yol gəldik. Əhvaz bazarında bizi soyub, taladılar. Fars qaraçıları nəyimiz vardı, süpürüb, apardılar. Nə qədər ki, bilmirdlər biz kimik və yaxud gələn kimdir... işimiz ağır gedirdi. Elə ki, bildilər şahə qalxan atın üstündəki Romadan gəlir... Vatikanın başçısıdır... hər şey dəyişdi. Cammat görmək üçün axışıb gəldi. Heç kimin xəbəri olmadan İraqın Samirra elçisi sanki peyda oldu. Onu İmam Əliyyən-Nəği göndərmişdi. Gəlişimizlə bağlı xəbərin ona hardan çatdırıldığı sirr olaraq qalırdı. Bunu Adriandan başqa heç kim bilmirdi...

Bağdadla Samirra arasında Bağdaddan da qədim tarixə malik Ukbara şəhəri idi. İranda farslar ona Buzurc Səbur deyirdilər. Ukbara assuriyalıların şəhəri kimi yaddaşlarda qalıb. Fərat və Dəclə çaylarının arasında qalan Ukbara yaşayış məntəqəsinə Adrian Böyük Əkbər şəhəri deyirdi. Şəhərin dolanbac, ensiz küçələri həmişə gur olardı. Ukbara şəhərinin üstünlüyü o idi ki, hər iki çayın-Fərat və Dəclənin sahilləri bu şəhəri dövrələmişdi. Ukbaradan Samirra şəhərinədək olan məsafə o qədər də böyük deyildi. Samirra şəhərinə gəlincə, bu şəhər Dəclə çayının sağ sahilində salınmışdı. Ərəblər deyirdilər ki, bu şəhərin ayaqları həmişə Dəclənin içində olur!.. Ayətulla Seyid Hadi İraqı Samirra şəhərini dünyanın qədim və yeni tarixlərində əbədi gözəl və müqəddəs şəhər kimi təsvir edirdi.

Tarixdə 870-871-ci il Bağdad Samirra şəhərləri dünyanın epidemiya mərkəzlərindən biri kimi qeyd olunur. Vəba virusları Samirra şəhərində sanki hücuma keçirdi. Samirra boşalırdı. Adamlar balaca gəmilərdə Samirradan qaçırdılar. Həmin vaxt Ukbara isə demək olar ki, boşalmışdı. II Adrian şəhərin bu ağır və gərgin vaxtında cahi-cəlalla qarşılanmağa sevindi o, şəhərin və adamların hüzünlü dəqiqələrində bunu büruzə vermədi. Yol boyu neçə yerdə sərilib, qalmış, can verən adamlar onu çaşdırmadı. Çünki çıxanda o bilirdi ki, sağalmaz bir bəla bürüyüb.

...İmam Əliyyən-Nəği Ukbaranın tən ortasında dayanmışdı. Adrian gördü ki, adamların cərgəsində bir ovuc nur və işıq saçır. O, bu işıq selinin qabağında tab gətirə bilmədi, dizləri büküldü. Və başladı, eynilə Gəncədə Şahzadə İbrahimin məzarına doğru necə süründüsə də, eləcə də işıq selinə doğru süründü və bu zaman yeri, göyü silkələyən bir səs eşitdi:

- Qalx, Həzrəti Adrian, qalx...

Amma Adrian dinmədi və yerindən tərpənmədi.

Göy guruldadı. Narın bir yağış başladı. Müsəlman aləmində belə bir yağışa "Rəhmət yağışı" deyirdilər. Əlini qoynuna apardı, sinəsinə sığdığı və uzun müddət üröyinin başında saxladığı məktubların üstündə saxladı. Biri-birinə tikilmiş üç məktub idi. Piramida şəklində bükülmüş məktubların biri İmam Əliyyən Nəğinin, ikinci məktub İmam Həsən Əsgərinin, üçüncü məktub isə İmam Həzrəti Mehdinin adına yazılmışdı. Hər məktubun üstündəki tarixdə qeyd olunurdu ki, bu məktublar Şəban ayında yazılıb. Və həmçinin bu məktubun hər birinin üstündə qeyd olunurdu: "...Məktublar Samirraya çatdırılsın. Məktublar Samirrada İmam Əliyyən-Nəğinin yaşadığı yerdə açılsın və oxunsun".

Səyyah Əs Səat "Yol qeydləri"ndə yazır: "...Bu məktubları görəndə Samirralı İmam Əliyyən-Nəği ağladı. Bu ağlamağın mənasını heç kim dərk etmədi. Bu məktublar hər üç İmamın doğulduğu tarixlərdən qabaq yazılmışdı. Kim yazmışdı? Nə üçün yazılmışdı?.. Bu sirr olaraq qalırdı. Hər bir halda bütün bunlar böyük bir tarixin başlanğıcı olaraq qalırdı..."

(Davamı var)